# KİTABXANADA AKADEMİK YUSUF MƏMMƏDƏLİYEVİN 120 İLLİK YUBİLEYİ QEYD OLUNDU

***Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) M.Ş.Vazeh adına Mərkəzi Kitabxanasında böyük kimyaçı-alim, akademik Yusuf Məmmədəliyevin 120 illik yubileyinə həsr olunmuş «Yusuf Məmmədəliyev: Odlar Yurdunun fəxri» adlı yubiley tədbiri keçirildi.***



Yasamal rayon MKS-inin direktoru, tarix üzrə fəlsəfə doktoru, Fəxri mədəniyyət işçisi Lətifə Məmmədova Azərbaycanda neft kimyasının memarı olan kimyaçı-alim, akademik Yusuf Məmmədəliyevin tədqiqatlarının SSRİ məkanında və dünyada böyük əks-səda doğurduğunu bildirdi. Akademik iki dəfə Azərbaycan SSR-i Elmlər Akademiyasının prezidenti, SSSR-i Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir. Yusuf Məmmədəliyevin tarixə qızıl hərflərlə yazılan ixtiralarından, onun rəhbərliyi ilə Azərbaycanda güclü neft kimya məktəbinin formalaşmasından, onunəldə etdiyi elmi nailiyyətlərin müasir kimya sənayesinin inkişafına təkan verməsindən geniş məlumat verdi. O qeyd etdi ki, sintetik kauçukun, «Molotov kokteyli»nin, yüksəkoktanlı benzinin ixtirası alimin adı ilə bağlıdır. L.Məmmədova qeyd etdi ki, dahi alim Azərbaycan elminin böyük təşkilatçısı olmuşdur. Onun təşəbbüsü ilə Elmlər Akademiyasının yeni binası inşa edilmiş, Şərqşünaslıq İnstitutu, Əlyazmalar Fondu, Şamaxı Rəsədxanası, Klinik Tibbi Xəstəxana yaradılmışdır. Ədəbiyyatda nizamişünaslıq istiqaməti inkişaf etməyə başlamış, «Kitabi-Dədə Qorqud» dastanının ölkəmizdə dərindən öyrənilməsi və Qobustanda arxeoloji qazıntılar aparılması haqqında təşəbbüslər irəli sürmüşdür. Bakıda böyük Nizaminin möhtəşəm abidəsi ucaldılmışdır. L.Məmmədova məruzəsində qeyd etdi ki, akademik Yusuf Məmmədəliyev tanınmış filosof Heydər Hüseynova böyük dəstək göstərmişdir, XX əsrin 30-cu illərində siyasi repressiyalara məruz qalan dövlət xadimlərinin övladlarının işə qəbul edilməsinə köməklik göstərilmişdir. Şamaxı Rəsədxanası üçün hazırlanan o zaman dünyada ən böyük teleskop haqqında məlumat verildi və qeyd olundu ki, akademik Y.Məmmədəliyevin çox böyük səyi nəticəsində sözügedən teleskop rəsədxanada quraşdırıldı. Bu gün Şamaxı rayonunun Pirqulu kəndinin yaxınlığında Şamaxı Rəsədxanasının ərzisində akademik Yusuf Məmmədəliyevin adını daşıyan qəsəbə var və qəsəbədə akademikin büstü ucalır.

Tədbirdə çıxış edən 225 №-li tam orta məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini, M.Ş.Vazeh adına Mərkəzi Kitabxananın Fəxri oxucusu, yazıçı, şair, məktəbin nəzdində Kiçik Akademiyanın rəhbəri Zenfira Nusalova tədbirin təşkilinə görə Lətifə Məmmədovaya təşəkkürün bildirdi və qeyd etdi ki, bəzi insanların adı daşlara bəzilərinin adı isə tarixə yazılır.Yusuf Məmmədəliyev məhz adı tarixə qızıl hərflərlə yazılan şəxsiyyətlərdəndir.

158 №-li tam orta məktəbin kimya müəllimi Gülçin Şıxməmmədova qeyd etdi ki, kimyaçı-alim Yusuf Məmmədəliyevin böyük ixtiraları Azərbaycanın neft kimyası sənayesində inqilab etmişdir. Onun xidmətləri unudulmur və bu gün də, gələcəkdə də gənc nəsillərə aşılanacaq.

M.Ş.Vazeh adına Mərkəzi Kitabxananın Fəxri oxucusu, Dünya Azərbaycanlı Yazarlar Qurumunun üzvü, yazıçı Şahzadə İldırım tədbirdə iştirakından böyük məmnunluq duyduğunu bildirdi və Yusuf Məmmədəliyev haqqında heç yerdə olmayan məlumatlar əldə etdiyi üçün tədbir təşkilatçılarına təşəkkürünü bildirdi.

M.Ş.Vazeh adına Mərkəzi Kitabxananın Fəxri oxucusu, tərcüməçi, şair, publisist Zeynəb Cəmaləddin çıxışında belə tədbirlərin əhəmiyyətindən, uşaqların daha çox maarifləndirilməsində və kimya elminə marağının artırılmasında böyük əhəmiyyət kəsb etdiyini vurğuladı.

Azərbaycandakı Rus İcmasının sədr müavini Lyubov Yakunina bu maraqlı tədbirdə iştirak edənlərə təşəkkür etdi və bildirdi ki, istedadlı alim və tədqiqatçının həyatı gənclərin bu sahəyə marağını artırır.

Tədbirin bədii hissəsində 225 №-li tam orta məktəbin nəzdində fəaliyyət göstərən Kiçik Akademiyanın üzvləri 7-ci, 8-ci və 10-cu sinif şagirdləri Nazlı Xasiyeva, Leyla Cəfərova, Murad Məmmədli, Mədinə Mirzəzadə, Mövlan Əlizadə, Zəhra Fərəcova, Aylin Səfərli, Mədinə Məmmədəliyeva, Elena Əbdürrəhmanova Xalq şairi Bəxtiyar Vahabzadənin, şairlər Qadir Hüseynovun, Hüseyn Razinin, Vaqif Məmmədovun, Sadiq Xanəliyevin, Əkrəm Məmmədovun akademik Yusuf Məmmədəliyevə həsr olunmuş «Ömür», «Halal olsun, Vətən oğlu», «İnsanlar, tələsin xeyirxahlığa», «Ordubadı gəzərkən», «Namərd ölüm səni ayırdı bizdən», «Yusuf Məmmədəliyevin əziz xatirəsinə» şeirlərini səsləndirdilər. 7-ci sinif şagirdi Mikayıl Qasımlı dəm qazından qorunmaq üçün ixtira etdiyi «Ağıllı ev sistemi»ni tədbir iştirakçılarına təqdim etdi. Layihə tədbir iştirakçıları tərəfindən maraqla qarşılandı.



Tədbirdə Mərkəzi Kitabxananın hazırladığı akademik Yusuf Məmmədəliyevin 120 illik yubileyinə həsr olunmuş «Elmə həsr olunmuş ömür», «Tarixə yazılan ömür», habelə 158 №-li tam orta məktəbin 9-cu sinif şagirdləri Zəhra Rəcəbova, Zəhra Tağıyeva, Ayan Kərimli və Məryəm Hüseynova hazırladıqları «Akademik Yusuf Məmmədəliyev — 120» adlı videoçarxlar nümayiş olundu.

Mərkəzi Kitabxana tərəfindən hazırlanan videoçarxlarda Ulu Öndər Heydər Əliyevin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın dünya şöhrətli kimyaçı-alim Yusuf Məmmədəliyev haqqında sitatları verilmişdir. «Elmə həsr olunmuş ömür» adlı videoçarxda akademik Y.Məmmədəliyevin elmi fəaliyyəti, dünya neft-kimya sənayesinin tarixinə qızıl hərflərlə yazılan ixtiraları haqqında məlumat verilmişdir və qeyd olunmuşdur ki, akademik Yusuf Məmmədəliyev Azərbaycan neft kimya sənayesinin əsasını qoymuşdur.

«Tarixə yazılan ömür» adlı videoçarxda alim elmin yüksək təşkilatçısı kimi göstərilmişdir və qeyd edilmişdir ki, akademik Azərbaycan dilinə böyük önəm vermişdir.

Birinci videoçarxda akademik Yusuf Məmmədəliyevin ən çox sevdiyi dünya şöhrətli Xalq artisti Bülbülün və tanınmış opera müğənnisi Azər Rzazadənin ifalarında Asəf Zeynallının «Ölkəm» mahnısı ilə, ikinci videoçarx isə dahi bəstəkar, Xalq artisti Üzeyir Hacıbəylinin «Koroğlu» operasının uvertürası və Müslüm Maqomayevin «Şah İsmayıl» operasından bir parça ilə müşayət olunur.

Yubiley tədbirində şair və yazıçılar, ziyalılar, müəllim və şagirdlər iştirak etdilər.

***Zəhra CƏBİYEVA,***
**Mərkəzi Kitabxananın İnformasiya-resurs şöbəsinin kitabxanaçı-informasiya texnologiyaları üzrə mütəxəssisi.**